# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELYASİYA ŞURASININ İCLASININ

# P R O T O K O L U

**№ 01**

**Bakı şəhəri** **24 sentyabr 2020-ci il**

**Sədrlik edirdi:** **V.Məmmədov**

**İştirak edirdilər:**

**Şuranın üzvləri:**

Q.Əliyev – Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri;

R.Süleymanov – İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri;

V.Məmmədəlizadə – Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsinin müdiri;

G.Məmmədov – Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri;

A.İbrahimova – Ticarət statistikası şöbəsinin müdiri;

H.Dadaşov – Qiymət statistikası şöbəsi müdirinin müavini.

**Katibliyin rəhbəri:**

S.Süleymanova – Ümumi şöbənin müdiri.

**Katibliyin üzvləri:**

V.İsmayılov – İnsan resursları və hüquq şöbəsinin Hüquq təminatı sektorunun müdiri;

O.Sadıqov – Rejim və məxfi kargüzarlıq şöbəsinin məsləhətçisi.

**Dəvət olunanlar:**

Akif Bayramov – Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu məsələləri şöbəsinin böyük məsləhətçisi

Murad Bərxudarzadə – Dövlət İmtahan Mərkəzinin Təşkilat şöbəsinin aparıcı məsləhətçisi;

Pənah Mehdiyev – Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu məsələləri şöbəsinin aparıcı məsləhətçisi;

Arif Hüseynov – İnsan resursları və hüquq şöbəsinin müdiri;

Çimnaz Əliyeva – İnformasiya texnologiyaları şöbəsinin müdiri;

Telman Quliyev – Bakı Şəhər Statistika İdarəsinin sektor müdiri;

Osman Gündüz (videogörüntü vasitəsilə) ;

Nuriyev Əliməmməd (telefon vasitəsilə) ;

Zöhrab İbrahimov, Absələddin Əliyev – müstəqil ekspertlər.

**Gündəlikdə duran məsələlər**

| | | |
|---|---|---|
| 1. | Qasımzadə Turanə İlham qızının 13 yanvar 2020-ci il tarixində elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apelyasiya şikayətinə baxılması haqqında | S.Süleymanova |
| 2. | Məmmədova Gülnarə İlqar qızının 13 yanvar 2020-ci il tarixində elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apelyasiya şikayətinə baxılması haqqında | S.Süleymanova |
| 3. | Həsənov Nicat Yaşar oğlunun 13 yanvar 2020-ci il tarixində elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apelyasiya şikayətinə baxılması haqqında | S.Süleymanova |
| 4. | Zeynalov Niyaməddin Suliddin oğlunun 02 iyun 2020-ci il tarixində elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apelyasiya şikayətinə baxılması haqqında | S.Süleymanova |
| 5. | Nazimli Elvin Nazim oğlunun 02 iyun 2020-ci il tarixində elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apelyasiya şikayətinə baxılması haqqında | S.Süleymanova |

**Eşidildi:**

**V.Məmmədov –** Bildiyiniz kimi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarında, onların yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində, habelə mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlər – həmin mərkəzi icra hakimiyyəti orqanlarında yaradılmış apelyasiya şuraları tərəfindən baxıla bilər. Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının bugünkü iclasının gündəliyinə Qasımzadə Turanə İlham qızının, Məmmədova Gülnarə İlqar qızının, Həsənov Nicat Yaşar oğlunun, Zeynalov Niyaməddin Suliddin oğlunun və Nazimli Elvin Nazim oğlunun şikayətləri ilə bağlı beş məsələ daxil olub. Birinci məsələ barədə məruzə etmək üçün söz S.Süleymanovaya verilir.

**Çıxış etdi: Ümumi şöbənin müdiri – S.Süleymanova**

**S.Süleymanova** – Bildirirəm ki, namizəd **Qasımzadə Turanə İlham qızı** Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 13 yanvar tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 13 iyul 2020-ci il tarixində Dövlət Statistika Komitəsinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Çimnaz Əliyeva, Dövlət İmtahan Mərkəzinin İnformasiyalaşdırma və texnoloji təminat şöbəsinin baş məsləhətçisi Elməddin Muxtarzadə və müstəqil ekspert Osman Gündüzdən ibarət komissiya tərəfindən keçirilmişdir. Qasımzadə Turanə İlham qızına müsahibə komissiyasının üzvlərindən Elməddin Muxtarzadə 15 bal, Çimnaz Əliyeva 16 bal, Osman Gündüz isə 14 bal vermiş və nəticədə iştirakçı 15.0 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 14.07.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apelyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Elməddin Muxtarzadənin rəyinə əsasən namizədin vakant vəzifəyə uyğunluğunu qiymətləndirmək məqsədilə vəzifənin tələbləri nəzərə alınmaqla müsahibə proqramlarına uyğun suallar verilmişdir. Suallara verilmiş cavablar əsasında namizədin peşə hazırlığının, xüsusilə də nəzəri biliklərinin tətbiqi bacarığı zəif, lakin bilik səviyyəsi, dünyada və ölkədə baş verən mühüm hadisələrə dair mülahizələrinin vəzifənin tutulması üçün yetərli olduğu qeyd edilmişdir.

**V.Məmmədov** – Müsahibədə müstəqil ekspert kimi iştirak edən Osman Gündüz hazırda videogörüntü vasitəsilə iclasa qoşulub. Onun namizədlə bağlı fikrini öyrənək. Osman müəllim, namizədin müsahibədə iştirakı ilə bağlı nə deyə bilərsiniz?

**O.Gündüz** - Namizəd Qasımzadə Turanə İlham qızı tərəfimdən verilən müsahibə proqramı və peşə hazırlığı ilə bağlı suallara orta səviyyədə cavab verə bilmişdir. Namizədin dünyada və cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılığı qənaətbəxşdir. Hesab edirəm ki, onun səmimi, məsuliyyətli və dürüstlük kimi zəruri keyfiyyətlərə sahib olması dövlət qulluğunda işləməsi üçün əsas ola bilər.

**V.Məmmədov** – Çimnaz xanım, namizədin verdiyi cavablar sizi qane edirdimi?

**Ç.Əliyeva** – Namizəd Turanə Qasımzadə peşə hazırlığı, İKT ilə bağlı müsahibədə verdiyim sualların əksəriyyətinə düzgün cavablar vermişdir. Bildiyiniz kimi, pandemiya ilə əlaqədar olaraq imtahan onlayn rejimdə təşkil edilmişdir. Bəzi texniki səbəblərdən səslərin

zəif gəlməsi namizəddə psixoloji gərginlik yarada bilərdi və o, sualları aydın eşitməyə bilərdi, bunu biz imtahanın video yazısında aydın görürük. Buna baxmayaraq, mən Qasımzadə Turanənin iddia etdiyi vəzifəyə uyğun olması barədə müsbət fikirdəyəm, çünki, müsahibənin keçirilməsində əsas məqsəd namizədin vakant vəzifə üzrə peşə hazırlığını yoxlamaqla, həmin vəzifəyə uyğunluğunu müəyyən etməkdir. Namizədin peşə hazırlığı ilə bağlı verilən suallara düzgün cavab verməsi onun iddia etdiyi vəzifəyə uyğun olduğuna əsas verir.

**V.Məmmədov** – Şura üzvləri xahiş edirəm məsələ ilə bağlı öz rəyinizi bildirəsiniz.

**Q.Əliyev** – Namizəd haqqında DİM-in nümayəndəsinin rəyi, müstəqil ekspert Osman müəllimin fikirləri, namizədin iddia etdiyi vəzifənin aidiyyəti üzrə şöbə müdiri Çimnaz Əliyevanın rəyi mənə deməyə əsas verir ki, Qasımzadə Turanəyə dövlət qulluğunda işləməsi üçün şans verilə bilər.

**V.Məmmədəlizadə** – Mən də müsahibə komissiyasının rəylərini oxudum. Hesab edirəm ki, namizəd keçid balına kifayət qədər yaxın bal toplamış və həm müstəqil ekspertin, həm DİM-in nümayəndəsinin, həm də müsahibə komissiyasının üzvü Çimnaz Əliyevanın namizəd haqqında müsbət fikrini nəzərə almaq lazımdır.

**H.Dadaşov** – Nəzərə alsaq ki, namizəd peşə hazırlığı və ümumi dünyagörüşü ilə bağlı verilən sualların çox hissəsini düzgün cavablandırıb, ümumilikdə mən də Turanə Qasımzadəni iddia etdiyi vəzifəyə uyğun hesab edirəm.

**G.Məmmədov** – Müsahibə komissiyasının rəyləri ilə tanış oldum. Mən namizədə statistika orqanlarında fəaliyyət göstərməsi üçün şans verilməsinin tərəfdarıyam.

**A.İbrahimova** – Namizədin İKT biliklərindən Çimnaz xanımın razı olması və eyni zamanda imtahan komissiyasının üzvlərinin yekdilliklə namizədin məsuliyyətli olması fikrini vurğulaması mənə deməyə əsas verir ki, o, öz üzərində daima çalışacaq və bu da onun gələcəkdə vəzifə funksiyalarının yerinə yetirməsinə müsbət təsir göstərəcək. Mən də namizədi iddia etdiyi vəzifəyə uyğun hesab edirəm.

***Gündəliyə çıxarılmış məsələ Apelyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Qasımzadə Turanə İlham qızının Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinə uyğun olduğu bildirildi.***

**Qərara alındı:**

1. Şikayət təmin edilsin, Qasımzadə Turanə İlham qızının İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il iyulun 13-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Eşidildi:**

**V.Məmmədov** – İkinci məsələ barədə məruzə etmək üçün söz S.Süleymanovaya verilir.

**Çıxış etdi: Ümumi şöbənin müdiri – S.Süleymanova**

Namizəd **Məmmədova Gülnarə İlqar qızı** Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 13 yanvar tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 13 iyul 2020-ci il tarixində Dövlət Statistika Komitəsinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Çimnaz Əliyeva, Dövlət İmtahan Mərkəzinin İnformasiyalaşdırma və texnoloji təminat şöbəsinin baş məsləhətçisi Elməddin Muxtarzadə və müstəqil ekspert Osman Gündüzdən ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədova Gülnarə İlqar qızına müsahibə komissiyasının üzvlərindən Elməddin Muxtarzadə və Çimnaz Əliyeva 16 bal, Osman Gündüz isə 14 bal vermiş və nəticədə iştirakçı 15.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 23.07.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

**V.Məmmədov** – Osman müəllim namizədin müsahibədə iştirakı ilə bağlı nə deyə bilərsiniz?

**Osman Gündüz** – Mən namizədin bilik səviyyəsi və peşə hazırlığını orta, ümumi dünyagörüşü və vakant vəzifə üçün zəruri olan keyfiyyətlərini isə yaxşı qiymətləndirmişəm. Bəlkə də imtahan onlayn rejimdə keçirilməsə idi, nəticə daha yaxşı ola bilərdi.

**V.Məmmədov** – Çimnaz xanım, namizəd barədə sizin fikirlərinizi bilmək istərdik.

**Ç.Əliyeva** – Namizəd Gülnarə Məmmədova informasiya texnologiyaları ilə bağlı müsahibədə verdiyim sualların əksəriyyətinə düzgün cavablar vermişdir. Mən namizədin cavabını 16 balla qiymətləndirmişəm. İndi də o fikirdəyəm ki, namizəd iddia etdiyi vəzifəyə uyğundur.

**V.Məmmədov –** Şura üzvləri, xahiş edirəm məsələ ilə bağlı öz rəyinizi bildirəsiniz.

**Q.Əliyev –** İmtahan komissiyasının üzvlərindən DİM-in nümayəndəsinin və Dövlət Statistika Komitəsinin şöbə müdirinin namizədə 16 bal verməsini və eyni zamanda müstəqil ekspert Osman Gündüzün də Məmmədova Gülnarə haqqında fikirlərinin müsbət olduğunu nəzərə alaraq onun iddia etdiyi vəzifəyə uyğun olduğunu düşünürəm.

**V.Məmmədəlizadə –** Namizədin iki komissiya üzvü tərəfindən 16 balla qiymətləndirilməsi müsbət haldır. İnformasiya texnologiyaları şöbəsinin müdiri namizədin bu vəzifəyə uyğun olduğunu və faydalı olacağını düşünürsə, mən də namizədə şans verilməsinin tərəfdarıyam.

**H.Dadaşov –** Müstəqil ekspert Osman Gündüz namizədə iki istiqamət üzrə yüksək, iki istiqamət üzrə nisbətən aşağı bal vermiş, ona görə yekun 14 balla nəticələnmişdir. Buna baxmayaraq, digər üzvlərin hər ikisinin 16 bal verməsi namizədin vəzifəyə uyğun olmasına əsas verir.

**G.Məmmədov –** Mən düşünürəm ki, namizədin keçid balına yaxın, yəni 15.3 bal toplaması nəzərə alınmalıdır.

**A.İbrahimova –** Namizəd haqqında deyilən fikirlərlə tam razıyam, düşünürəm ki, onun dövlət qulluğunda işləməsinə şans verək.

***Gündəliyə çıxarılmış məsələ Apelyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Məmmədova Gülnarə İlqar qızının Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinə uyğun olduğu bildirildi.***

**Qərara alındı:**

1. Şikayət təmin edilsin, Məmmədova Gülnarə İlqar qızının İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il iyulun 13-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Eşidildi:**

**V.Məmmədov –** Üçüncü məsələ barədə məruzə etmək üçün söz S.Süleymanovaya verilir.

**Çıxış etdi: Ümumi şöbənin müdiri – S.Süleymanova**

Bildirirəm ki, namizəd **Həsənov Nicat Yaşar oğlu** Bakı şəhəri Statistika İdarəsinin Ticarət statistikası sektorunda baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 13 yanvar tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 21 iyul 2020-ci il tarixində Bakı şəhəri Statistika İdarəsinin İnsan resursları, hüquq və sənədlərlə iş sektorunun müdiri Telman Quliyev, Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin böyük məsləhətçisi Akif Bayramov, müstəqil ekspert Zöhrab İbrahimovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Nicat Həsənova müsahibə komissiyasının üzvlərindən Telman Quliyev və Zöhrab İbrahimov 15 bal, Akif Bayramov isə 13 bal vermiş və nəticədə iştirakçı 14.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 22.07.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

**V.Məmmədov –** Akif müəllim, namizəd haqqında sizin fikriniz necədir?

**A.Bayramov –** Namizəd ümumi proqram üzrə verilən sualların bir qismini düzgün cavablandırmış, dünyada və ölkədə baş vermiş mühüm hadisələrə dair verilən suallara natamam cavab vermişdir. Namizədin cavabları məni tam qane etməsə də, onun təkmilləşmə potensialı var.

**V.Məmmədov –** Zöhrab müəllim, namizədin verdiyi cavablar sizi qane etdimi?

**Z.İbrahimov –** Namizəd Nicat Həsənovun müsahibə üzrə bilik səviyyəsi və nəzəri bilikləri qənaətbəxşdir, lakin cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılıq səviyyəsi zəifdir.

**V.Məmmədov –** Telman müəllim, namizədin müsahibədə verdiyi cavablar sizi qane etdimi?

**T.Quliyev –** Mənim tərəfimdən verilən suallara namizədin cavabı qənaətbəxşdir. Mən sadəcə imtahanın nəticəsi ləğv olmasın deyə, ona 15 bal verdim. DİM-in nümayəndəsi ilə 3 bal fərq yarandığı halda, qiymətləndirmə etibarsız sayıla bilərdi. Nəzərə almaq lazımdır ki, namizəd Həsənov Nicat hal-hazırda Bakı şəhəri Statistika İdarəsində Əhali statistikası sektorunda çalışır. O, işlədiyi bir il müddət ərzində özünü bacarıqlı, potensiallı işçi kimi göstərə bilmişdir.

**V.Məmmədov –** Şura üzvləri, xahiş edirəm məsələ ilə bağlı öz rəyinizi bildirəsiniz.

**Q.Əliyev –** İmtahan komissiyasının üzvlərininin fikrinə diqqətlə qulaq asdım və məndə namizəd haqqında müsbət rəy yarandı. Gənc kadr olmasını və hal-hazırda Bakı Şəhər Statistika İdarəsində işləməsini nəzərə alaraq ona şans vermək olar.

**V.Məmmədəlizadə –** Namizəd haqqında səslənən fikirləri izlədim. Namizəd haqqında yekun fikir odur ki, potensiallı kadrdır, öz üzərində işləyərsə inkişaf edəcək. Məncə namizədə şans verilsin.

**H.Dadaşov –** Telman müəllim bilavasitə namizədi tanıyır, onun kollektiv arasında potensiallı gənc kimi tanındığını vurğulayır. Odur ki, namizədin vəzifəyə uyğun olmasına imkan yaradılmasının tərəfdarıyam.

**G.Məmmədov –** Mən apelyasiya şurasının üzvlərinin fikirləri ilə həmrəy olduğumu bildirirəm.

**A.İbrahimova –** Namizəd haqqında deyilən fikirlərlə tam razıyam, rəylərdən göründüyü kimi, namizədin perspektiv inkişaf imkanları mövcuddur və buna görə mən namizəd haqqında müsbət fikirdə olduğumu bildirirəm.

***Gündəliyə çıxarılmış məsələ Apelyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Həsənov Nicat Yaşar oğlunun Bakı şəhəri Statistika İdarəsinin Ticarət statistikası sektorunda baş məsləhətçi vəzifəsinə uyğun olduğu bildirildi.***

**Qərara alındı:**

1. Şikayət təmin edilsin, Həsənov Nicat Yaşar oğlunun Bakı şəhəri Statistika İdarəsinin Ticarət statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il iyulun 21-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Eşidildi:**

**V.Məmmədov –** Dördüncü məsələ barədə məruzə etmək üçün söz S.Süleymanovaya verilir.

**Çıxış etdi: Ümumi şöbənin müdiri – S.Süleymanova**

Bildiyimiz kimi, **Zeynalov Niyaməddin Suliddin oğlu** Dövlət Statistika Komitəsinin aparatında İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il 02 iyun tarixində elan edilmiş

ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 03 sentyabr 2020-ci il tarixində Dövlət Statistika Komitəsinin İnsan resursları və hüquq şöbəsinin müdiri Arif Hüseynov, Dövlət İmtahan Mərkəzinin Təşkilat şöbəsinin aparıcı məsləhətçisi Murad Bərxudarzadə, müstəqil ekspert Əliməmməd Nuriyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Niyaməddin Zeynalova müsahibə komissiyasının üzvlərindən Arif Hüseynov və Murad Bərxudarzadə 12 bal, Əliməmməd Nuriyev isə 13 bal vermiş və nəticədə iştirakçı 12.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 08.09.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

**V.Məmmədov –** İmtahan komissiyasının üzvü, DİM-in nümayəndəsi Murad Bərxudarzadə Apelyasiya Şurasının iclasında iştirak edir. Murad müəllim, namizədin müsahibədə iştirakı ilə bağlı nə deyə bilərsiniz?

**M.Bərxudarzadə –** Mən rəydə də qeyd etmişəm ki, namizəd müsahibə proqramı üzrə ona verilən suallara tam və ətraflı cavab verməmiş, eyni zamanda bir çox sualları səhv cavablandırmışdır. Namizədin ümumi dünya görüşü məhduddur, vakant vəzifə üçün zəruri olan keyfiyyətləri lazımi səviyyədə deyildir.

**V.Məmmədov –** İmtahan komissiyasının üzvü, müstəqil ekspert Əliməmməd Nuriyev telefon vasitəsilə bizim iclasa qoşulur. Əliməmməd müəllim, siz Zeynalov Niyaməddin Suliddin oğlu ilə keçirilən imtahanda iştirak etmisiniz, namizəd haqqında nə deyə bilərsiz?

**Ə.Nuriyev –** Namizədin müsahibə proqramı üzrə bilikləri yaxşıdır, lakin peşə hazırlığı üzrə bilikləri, onun tətbiqi imkanları vəzifənin tutulma şərtlərinə cavab vermir. Namizədin vakant vəzifə üçün zəruri keyfiyyətlərdən olan emosional sabitliyi qeyri-stabildir.

**V.Məmmədov –** İmtahan komissiyasının üzvü, Dövlət Statistika Komitəsi aparatının İnsan resursları və hüquq şöbəsinin müdiri Arif Hüseynov da iclasda iştirak edir. Arif müəllim, siz də namizəd haqqında öz fikrinizi bildirin.

**A.Hüseynov –** Namizəd şikayətində bildirir ki, ona müsahibə proqramı üzrə suallar verilməmişdir. Mən müsahibə zamanı qeydlər aparmışam. Namizəd ona verilmiş 11 sualdan 7-sinə səhv cavab vermişdir. Vahab müəllim, ona proqramdan kənar sual verilməyib.

Namizəd müsahibə zamanı emosional davrandı və imtahan komissiyasının üzvləri ilə yersiz mübahisələr etdi.

**Vahab Məmmədov** – Apelyasiya şurasının üzvləri üçün imtahanın video yazısına baxmaq imkanı təmin edilmişdir. Zəhmət olmasa imtahanın video yazısına baxaq.

**V.Məmmədov –** Şura üzvləri, siz namizəd haqqında komissiya üzvlərinin fikirlərini dinlədiniz, eyni zamanda da imtahanın video yazısına baxdınız. Xahiş edirəm məsələ ilə bağlı öz rəyinizi bildirəsiniz.

**R.Süleymanov –** Namizədin yekun qiymətləndirmə balı 12.3-dür və onun haqqında səsləndirilən fikirlərdən də aydın görünür ki, o, iddia etdiyi vəzifənin tələblərinə hazırlıqlı deyil. Namizəd haqqında müzakirə aparmağa dəyməz. Mən imtahan komissiyasının verdiyi yekun balla tam razıyam.

**Q.Əliyev –** İmtahanın video yazısına baxmaq bizə kömək etdi ki, imtahanın gedişi haqqında tam təfsilatlı rəyə sahib olaq. Açıq demək lazımdır ki, namizəd çox zəif cavab verməklə iddia etdiyi vəzifənin tələblərinə cavab vermədiyini nümayiş etdirir. Hesab edirəm ki, ona verilən 12.3 bal bəlkə də çoxdur.

**V.Məmmədəlizadə** – Rəylərdən, video yazıdan və səsləndirilən fikirlərdən göründüyü kimi komissiya tərəfindən namizədə verilmiş yekun bal ədalətlidir.

**G.Məmmədov** – Mən verilmiş qərarın doğruluğunu təsdiq edirəm.

**A.İbrahimova** – İmtahanın video yazısına baxdıqdan sonra əminliklə deyə bilərəm ki, namizəd haqqında imtahan komissiyasının verdiyi qərar obyektivdir.

**H.Dadaşov** – Namizədə verilən suallara natamam və ya səhv cavab verməsi onun bilik səviyyəsinin aşağı olmasını göstərir. Mən də komissiyanın verdiyi yekun balla tam razıyam.

***Gündəliyə çıxarılmış məsələ Apelyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Zeynalov Niyaməddin Suliddin oğlunun Dövlət Statistika Komitəsinin aparatında İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun məsləhətçi vəzifəsinə uyğun olmadığı bildirildi.***

**Qərara alındı:**

1. Zeynalov Niyaməddin Suliddin oğlunun 08 sentyabr 2020-ci il tarixli apelyasiya şikayəti təmin edilməsin və İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il sentyabrın 3-də keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Eşidildi:**

**V.Məmmədov –** Beşinci məsələ barədə məruzə etmək üçün söz S.Süleymanovaya verilir.

**Çıxış etdi: Ümumi şöbənin müdiri – S.Süleymanova**

Namizəd **Nazimli Elvin Nazim oğlu** Dövlət Statistika Komitəsinin aparatında İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il 02 iyun tarixində elan edilmiş ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 07 sentyabr 2020-ci il tarixində Dövlət Statistika Komitəsinin İnsan resursları və hüquq şöbəsinin müdiri Arif Hüseynov, Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin aparıcı məsləhətçisi Pənah Mehdiyev, müstəqil ekspert Absələddin Əliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Elvin Nazimliyə müsahibə komissiyasının üzvlərindən Arif Hüseynov 12 bal, Pənah Mehdiyev 13 bal, Absələddin Əliyev isə 14 bal vermiş və nəticədə iştirakçı 13 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 08.09.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

**V.Məmmədov –** İmtahan komissiyasının üzvü, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Pənah Mehdiyev Apelyasiya Şurasının iclasında iştirak edir. Pənah müəllim namizədin müsahibədə iştirakı ilə bağlı nə deyə bilərsiniz?

**P.Mehdiyev –** Namizəd müsahibə proqramı üzrə tam hazırlıqlı olmasa da, ona verilən sualların bir qismini tam mahiyyəti üzrə cavablandırmış, lakin əksər sualları konkret cavablandırmamışdır. Komissiya üzvləri tərəfindən namizədin suallara konkret cavab verməsi tövsiyə edilmişdir. Namizədin peşə hazırlığı – nəzəri və qanunvericilik biliklərinin yoxlanılması məqsədilə verilən suallar namizəd tərəfindən tələb olunan səviyyədə cavablandırılmamışdır. Namizədin ölkədə və cəmiyyətdə baş verən hadisələrə dair məlumatlılığı zəifdir. Namizəd emosional sabit deyildir.

**V.Məmmədov –** Absələddin müəllim, sizin də namizəd haqqında fikirlərinizi bilmək istərdik.

**A.Əliyev –** Namizəd müsahibə zamanı verilən suallara əsas etibarilə səhv olmaqla, sualların mahiyyətinə uyğun olmayan ümumi xarakterli cavablar verməklə kifayətlənirdi. Namizədin bilik səviyyəsi, nəzəri və qanunvericilik biliklərinin tətbiqi bacarığı zəifdir.

**V.Məmmədov –** Arif müəllim, namizəd haqqında siz də öz rəyinizi bildirin.

**A.Hüseynov –** Mən qeydlər aparmışam. Namizəd mənim tərəfimdən verilmiş 3 suala düzgün, 3 suala natamam cavab vermiş, 7 sualı isə cavablandıra bilməmişdir.

**V.Məmmədov–** Zəhmət olmasa imtahanın video yazısına baxaq. Sonra, şura üzvləri məsələ ilə bağlı öz rəylərini bildirsin.

**R.Süleymanov–** Vahab müəllim, video yazıdan da aydın oldu ki, namizədə obyektiv qiymət verilmişdir.

**Q.Əliev –** Namizəd haqqında imtahan komissiyasının verdiyi rəyləri diqqətlə oxudum, imtahanın video yazısı da mənə deməyə əsas verir ki, namizəd iddia etdiyi vəzifəyə uyğun deyil.

**V.Məmmədəlizadə –** Rəylərdən, video yazıdan və səsləndirilən fikirlərdən göründüyü kimi, komissiya üzvləri tərəfindən namizədə verilmiş yekun qiymət tam obyektivdir.

**G.Məmmədov –** Mən verilmiş qərarın doğru olduğunu video yazı vasitəsilə dəqiqləşdirdim. Namizədin şikayətinin əsassız olduğu qənaətindəyəm.

**A.İbrahimova –** İmtahanın video yazısı mənə deməyə əsas verir ki, ola bilsin namizədin yaxşı danışıq qabiliyyəti var, lakin o, verilən sualların cavabını bilmədiyi üçün suallar ətrafında çox danışmaqla vaxt aparmaq istəyib və ona verilən suallara konkret, dürüst cavab verə bilməmişdir.

**H.Dadaşov –** Apelyasiya şurasının səsləndirdiyi fikirlərlə razıyam, fikrimcə imtahan komissiyası namizədə ədalətli qiymət verib. İmtahanın video yazısından da hər birimizə məlum oldu ki, onun komissiya üzvləri tərəfindən 13 balla qiymətləndirilməsi obyektivdir.

***Gündəliyə çıxarılmış məsələ Apelyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Nazimli Elvin Nazim oğlunun Dövlət Statistika Komitəsinin aparatında İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun məsləhətçi vəzifəsinə uyğun olmadığı bildirildi.***

**Qərara alındı:**

1. Nazimli Elvin Nazim oğlunun 08 sentyabr 2020-ci il tarixli apelyasiya şikayəti təmin edilməsin və İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi

sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il sentyabrın 7-də keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**

**Katib** **Sevda Süleymanova**